# AZƏRBAYCANIN İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİNDƏ KİTABXANALARIN BƏRPASI VƏ FORMALAŞMASI PERSPEKTİVLƏRİ

**Hacı Qasımlı**

*BDU, Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının doktorantı*

Müasir dövrdə informasiya axınlarının həcminin artması, cəmiyyətin mütaliəyə olan marağının yüksəlməsi, informasiya texnologiyalarının mürəkkəbləşməsi və imkanlarının genişlənməsi ilə müşayiət olunur. Hazırda kitabxana-informasiya müəssisələrində kitablar, dövri və mütəmadi çap olunan nəşrlər, məqalələr, məlumat bazaları haqqında biblioqrafik informasiyanı özündə saxlayan çox böyük həcmdə informasiya resursları cəmləşmiş, müasir üslubda informasiya fəzası formalaşmışdır. Bu cür müasir tələblər səviyyəsində informasiya fəzasının formalaşmasında kitabxanaların və informasiya xidməti sistemlərinin mühüm yeri vardır. Bu baxımdan cəmiyyətin informasiya tələbatının ödənilməsində müasir tələblərə cavab verən kitabxanaların yaradılması mühüm rola malikdir.

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində kitabxana fondlarının formalaşdırılması, təşkili, qorunması, mühafizəsi, istifadə səmərəliliyi ilə bağlı ortaya çıxan problemləri həll etmək və onların təkmilləşdirilməsi sahəsində görüləcək işləri müəyyənləşdirmək zərurəti meydana çıxır. Bunlar aşağıdakılardır:

- İşğaldan azad edilmiş ərazilərdə kitabxana fondlarının yaradılmasının vahid sistemini yaratmaq;
- Həmin ərazilərdə yaradılacaq kitabxana-informasiya mərkəzlərinə ayrılan maliyyə vəsaitini daim artırmaq, bu işə kitabxana ictimaiyyətinin görkəmli ziyalılarını, peşəkar kitabxana mütəxəssislərini, elm, maarif və mədəniyyət xadimlərini cəlb etmək;
- Yeni yaradılacaq kitabxana fondlarından səmərəli istifadəni təşkil etmək üçün elektron resurs bazası yaratmaq, və resurslar üzrə sahəvi onlayn və oflayn xidməti təmin etmək;
- İşğaldan azad edilmiş ərazilərimizdə məktəblərin, elmi-tədqiqat müəssisələrinin elmi-informasiya fəaliyyətinin təşkili və gücləndirilməsində yeni kitabxana-informasiya müəssisələrinin iştirakını təmin etmək;
- Kitabxana fondlarının komplektləşdirilməsi, qorunması, və bərpası sahəsində yeni texnologiya və texniki vasitələri tətbiq etmək.





Respublikamızın işğaldan azad edilmiş ərazilərində yeni yaradılacaq kitabxana-informasiya müəssisələrində ədəbiyyatın fonda daxil edilməsi baxımından qiymətləndirilməsinin əsas kriteriyaları aşağıdakıladır:

1. Sənədin parametrlər üzrə kitabxana fondunun modelinə uyğunluğu;
2. Peşəkar mövqeyin qiymətliliyi;
3. İnformativlik;
4. İnformasiyanın yeniliyi;
5. İnformasiyanın kitabxana abunəçilərinə əlçatanlığı;
6. Mövzunun seçilmə dərəcəsi, lazımlı informasiyanın alınması;
7. Kitabxana abunəçilərinin ədəbiyyatlara olan tələbinin proqnozlaşdırılması.

Ənənəvi kitabxanadan elektron kitabxanaya keçid zamanın müasir tələblərinə uyğun olaraq yeni yaradılacaq ərazilərdə kitabxanalarda elektron texnologiyaların tətbiq olunması, məkan və zaman probleminin tamamilə aradan qaldırılması, resursların və istifadəçilərin fərdi məlumatlarının təhlükəsizliyinin təmin olunması, həmin ərazilərdə sosial şəbəkələrin aşkarlanması nəticəsində kitabxana işinin idarə olunmasının təkmilləşdirilməsi, intellektual kitabxana xidmətlərinin təklif olunması və s. həm məhdud imkanlı şəxslərin ənənəvi və elektron kitabxanalardan istifadəsini təmin edəcək, həm də digər istifadəçilərin kitabxana-informasiya müəssisələrindən istifadə keyfiyyətini artıracaq.

Tezisdə qarşıya qoyulan əsas məqsəd işğaldan azad edilmiş doğma ərazilərimizdə yaradılacaq kitabxana-informasiya müəssisələrinin fəaliyyətində yeni iş üsullarının tətbiq olunması, yeni yaradılacaq kitabxanalarla bağlı kitabxanaçı-mütəxəssislər tərəfindən ideya və fikirlərin verilməsi, kitablarla yanaşı qəzet və jurnalların rəqəmsallaşdırılması sahəsində mövcud problemlərin həll edilməsi məqsədilə müasir texniki avadanlıqlarla yeni yaradılacaq kitabxanaların təchizatı, internet vasitəsilə kitabxanalarla operativ əlaqənin yaradılması kimi problemlərin həll edilməsidir.